“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 2 (02) ✦ 26 iyun 2024-cü il




## 15 İyun Azərbaycan Xalqının Milli Qurtuluş Günü

31 il əvvəl, Azərbaycan adlı məmləkətdə dəhşətli proseslər cərəyan edirdi. Bir il öncə, küçədən birbaşa ali hakimiyyət kürsülərinə oturmuş, təcrübəsiz AXC-Müsavat cütlüyü eyforiyadan başını itirmişdi. Bir tərəfdən rayonlarımız ermənilər tərəfindən işğal olunur, yüz minlərlə məcburi köçkün ev-eşiyindən didərgin düşür, digər tərəfdən etnik separatizm zəminində qondarma qurumların yaradılmasına cəhd edilirdi. Cənub bölgəsində baş separatçı Əlikram Hümbətovun rəhbərlik etdiyi döyüş briqadası, cəbhə xəttini özbaşına tərk edir və Lənkəranda ,,Talış-Muğan respublikasını,, elan edir. Atəşkəs rejiminin 1994-cü ilin mayında, Bişkekdə imzalandığını nəzərə alsaq, 93-cü ilin iyun ayında bütöv bir hərbi hissənin döyüş bölgəsini tərk etməsi, ən ağır hərbi cinayət hesab olunur.

Şimal bölgəsində general Qəhrəmanovun başçılıq etdiyi Sadval təşkilatı da, hələ oturuşmamış Azərbaycan dövlətinin zəifliyindən istifadə edərək, konkret ərazilər üzrə iddialarla çıxış edir. Burada ən təəccüblüsü odur ki, Sadvalın təsis konfransı Bakının mərkəzində, o zamankı 26-lar, indiki Səbayil rayonunda(səhv etmirəmsə, neftçilərin mədəniyyət sarayında) keçirilir. Sual olunur: hansı normal siyasi hakimiyyət oturduğu budağı kəsər?! AXC-Müsavat hakimiyyəti, ölkəni parçalamaq istəyən separatçı qüvvələrin fəaliyyətinə yaşıl işıq yandırır, hüquqi zəmin yaradır. Əgər bunun adı demokratiyadırsa, olduqca təhlükəli bir zatdı. Təsis konfransı ölkə xaricində keçirilsəydi, hardasa başa düşmək olardı. Hər iki separatçı qurum, Azərbaycanı parçalamaq istəyən xarici qüvvələr tərəfindən idarə olunurdu.

Digər bir istiqamət isə, şimal-qərb bölgəsində baş verən hadisələr idi. Heç bir zərurət olmadan, Balakən rayonuna 7 ədəd tank, o cümlədən zirehli transportyorlar gətirilir, əhaliyə xeyli sayda atıcı silahlar paylanır. Qısa müddət ərzində, rayonda formalaşmış çoxsaylı cinayətkar dəstələr tərəfindən ağır cinayətlər törədilir. Yeri gəlmişkən, Bakı da daxil olmaqla respublikanın elə bir bölgəsi yox idi ki, orada cinayətkar qruplar olmasın. Təcrübə göstərir ki, mərkəzi hakimiyyət və dövlət idarəetmə sistemi zəif olduqda, yerlərdə mütəşəkkil cunayətkarlıq "yağışdan sonra çıxan göbələkləri" xatırladır. Hətta, cinayətə meyl etməyən gənclər belə həmin qruplara qoşulurlar.

Hər bir ölkənin xarici siyasəti, onun daxili siyasətinin davamıdır. Bu baxımdan, AXC-Müsavat hökumətinin apardığı daxili siyasətin mənfi təzahürləri, xarici siyasətdə də özünü göstərir. Yenicə müstəqilliyinə nail olmuş, ölkə üçün, digər dövlətlərlə, beynəlxalq təşkilatlatlarla münasibətlər qurması, əməkdaşlıq üçün tərəfdaşlar toplaması, son dərəcə zəruridir. Müvəffəqiyyətdən başları gicəllənən ,,meydan qəhrəmanları,, isə hakimiyyətə yiyələnən kimi, ölkənin iqtisadi və siyasi gücünü, ümumiyyətlə potensialını düzgün qiymətləndirmədən, bir çox müstəqil dövlətlərlə imperativ formada danışmağa, müxtəlif coğrafiyalara bayraq sancmağa başladılar. Nəticə özünü çox gözlətmədi. Ölkə, beynəlxalq platformalarda təkləndi, uzun illər ərzində iqtisadi dəstəyi məhdudlaşdıran, bədnam 907-maddə qəbul edildi. Qardaş Türk Cümhuriyyətləri ilə, belə münasibər pozuldu.

Gəncədə qardaş qırğını baş verdi. Ölkə vətəndaş müharibəsi həddinə çatdı. Xüsusilə qeyd etmək yerinə düşər ki, 88-ci ildən 93-cü ilə qədər, hər il dəyişən siyasi hakimiyyətlər xalqı bezdirmiş, gələcəyinə inamı itirmişdi.

Bu gün biz qətiyyətlə deyə bilərik ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri, əldə olunan tarixi qələbələr, siyasi, iqtisadi, hərbi gücü Ümummilli Lider Heydər Əliyevin, dərin düşünülmüş, uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Əgər, 1993-cü il iyun ayının 15-də Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, xalqımızın, hansı fəlakətlərlə üzləşəcəyini proqnozlaşdırmaq çətin olmazdı.

15 iyun Milli Qurtuluş, Xilaskarlıq bayramıdır.

**BAYRAMINIZ MÜBARƏK !!!**

**Nəsib MƏHƏMƏLİYEV,**
**Azərbaycan Respublikası Milli Məclisinin Deputatı**

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## Medianın İnkişafı Agentliyinin qonaqları

İyunun 1-də Maohi Nuinin (Fransız Polineziyasının) nümayəndə heyəti Medianın İnkişafı Agentliyində olub.

Agentlikdən bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda müasir çağırışlara uyğun media mühitinin formalaşması haqqında məlumat verib. Bildirib ki, Agentlik media sahəsində fəaliyyətin çağdaş trendlərə uyğunlaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirir.

O, "Media haqqında" Azərbaycan Respublikası Qanunu və bu sahəni tənzimləyən digər normativ-hüquqi aktlar barədə məlumat verib, eyni zamanda, jurnalistlərin peşə etikası qaydalarının xüsusi əhəmiyyət daşıdığını qeyd edib, Azərbaycanda media sahəsində həyata keçirilən institusional quruculuq işlərindən danışıb.

Fransız Polineziyasından olan nümayəndələr media sahəsinin inkişaf etdirilməsi, media subyektləri və jurnalistlərə dəstək göstərilməsi istiqamətində işin təşkili, həmçinin müstəqil media subyektlərinin yaradılması ilə bağlı ölkəmizdəki təcrübə ilə maraqlandıqlarını bildirib, həmçinin gələcəkdə müvafiq sahədə əməkdaşlığın təşkili və mümkün formaları ilə əlaqədar fikirlərini bölüşüblər.

**“YENİ BALAKƏN”**



## Şuşada Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII İclası keçirilib




İyunun 1-də Şuşa şəhərində Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII İclası keçirilib.

İclasda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Türk Dövlətləri Təşkilatının qısa müddət ərzində əldə etdiyi uğurların təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin bu vacib proseslərə töhfə verməkdən məmnun olduğunu söyləyən Emin Əmrullayev türkdilli dövlətlər arasında dayanıqlı və sağlam əməkdaşlığın bünövrəsinin gənclər olduğunu vurğulayıb. Nazir qeyd edib ki, bu baxımdan Türk Dövlətləri Təşkilatı çərçivəsində ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsi məktəblilərimizin ortaq tarix, mədəniyyət və adət-ənənələri tanımasına şərait yaradır.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə həm təşkilat çərçivəsində, həm də ikitərəfli əməkdaşlıq əlaqələrinin bu gün də uğurla davam etdirildiyini bildirən Emin Əmrullayev işğaldan azad olunmuş ərazilərdə qardaş ölkələrin dəstəyi ilə tikilən məktəbləri, həmçinin görülən digər işləri ölkələrimiz arasında dostluq və qardaşlığın növbəti rəmzi kimi qiymətləndirib.

Nazir çıxışının yekununda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrlə ikitərəfli əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində qarşıda duran hədəflərə toxunub.

Daha sonra digər qonaqlar çıxış edərək elm və təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi məsələsindən söz açıblar.

Çıxışlardan sonra iclasın gündəliyində olan məsələlər müzakirə edilib.

**“YENİ BALAKƏN”**

## DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən iyunun 23-ü Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edildiyini nəzərə alaraq qərara alıram:

1. Hər il iyunun 23-ü Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı kimi qeyd edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 may 2006-cı il**





Bu bayram ilk dəfə BMT Baş Assambleyasının 20 dekabr 2002-ci il tarixli qətnaməsinə əsasən, 2003-cü ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü kimi qeyd edilmişdir. Həmin qətnamədə BMT-nin üzvü olan dövlətlərə tövsiyə olunmuşdur ki, dövlət qulluğunun dövlətlərin inkişafında əhəmiyyətini daha yaxşı işıqlandırmaq və təbliğ etmək məqsədilə xüsusi gün təsis etsinlər. Dövlət qulluqçusunun dövlətin, cəmiyyətin və hər bir vətəndaşın həyatında önəmini, demokratik, hüquqi və dünyəvi dövlətin qurulması prosesində dövlət qulluğunun rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edildiyini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin günü "Dövlət Qulluqçularının Peşə Bayramı Günü" kimi təsis etmişdir.

Balakəndə "Dövlət Qulluqçularının Peşə Bayramı Günü" qeyd olundu. Rayonumuzda çalışan dövlət qulluqçuları Balakən RİH-in başçısı İslam Rzayevlə birgə dağüstü parkda ucaldılmış ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül çiçək dəstələri qoydular.Tədbiri giriş sözüylə açan, çıxışa ilk başlayan rayon rəhbəri dövlət qulluğundan,dövlət qulluqçularının məsuliyyətindən danışaraq Balakəndə çalışan dövlət qulluqçularının fəaliyyətindən razılığını bildirdi,bəzi tövsiyyələrini verdi.Tədbirdə iştirak edən siyasi rəhbər Azad Balayev dövlət qullqçularını təbrik etdi,işlərində uğurlar dilədi. RİH başçısı İslam Rzayev rayonumuzda dövlət qulluğunda fərqlənən bu şəxsləri Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif etdi:

1.Əhmədov Araz Sabir oğlu
2.Papaxov Mehman Məhəməli oğlu
3.Kaltayev İlham Sabir oğlu
4.Əsəbəliyev İlyas Məhəmməd oğlu
5.Şabanov Vüsal Məhəmməd oğlu

Sonda bu gündən xatirə olaraq foto şəkil çəkildi.

**"YENİ BALAKƏN"**

# 17 İyun - Tibb işçilərinin peşə bayramı günü qeyd edildi

Hər il iyunun 17-si xalqımızın ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.

Həmin gün öz başlanğıcını Azərbaycan Xalq Cümhuriyyətindən götürür. Şərqdə ilk demokratik respublikası olan Milli hökumətin ilk qərarlarından biri 1918-ci il iyun ayının 17-də Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar oldu. İlk səhiyyə və sosial təminat naziri vəzifəsinə ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyli təyin edildi. Onun rəhbərliyi müddətində dövlət hesabına pulsuz xəstəxanalar açıldı, yeni tibb ocaqlarının və laboratoriyaların tikintisinə başlanıldı və yoluxucu xəstəliklərə qarşı mübarizə tədbirləri görüldü.

Əsrdən artıq müddətdə Azərbaycan səhiyyəsi çox böyük inkişaf yolu keçib. Ölkəmizdə 700-dən artıq yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış tibb müəssisəsi müasir avadanlıqlarla təmin olunub. Aparılan islahatlar, maddi-texniki bazanın təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən işlər əhalinin dövlət tibb müəssisələrinə olan inamını getdikcə artırır..



Yeni növ koronavirus (COVID-19) pandemiyası və 44 günlük Vətən müharibəsi dövründə ölkəmizin tibb işçiləri öz vəzifə borclarını ləyaqətlə yerinə yetirərək həm ümumbəşəri təhlükə ilə mübarizədə, həm də döyüş cəbhəsində yaralanan əsgərlərin sağaldılaraq həyata qaytarılmasında böyük fədakarlıq nümunəsi göstəriblər.

Hippokrat andı içən şərəfli peşə sahibləri, fədakar tibb işçiləri ən ağır və çıxılmaz vəziyyətlərdə də ümid işığı yandırmaq, şəfasıza şəfa, çarəsizə çarə vermək üçün hər cür zəhmətə qatlaşırlar. Elə bu nəcib peşələrinə görə tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər.

Bu gün Balakən rayonunda səhiyyə işçiləri peşə bayrmlarını qeyd etdilər.Balakəndə fəaliyyət göstərən Balakən RMX-ın, Balakən GEM-in, "UĞUR" tibb mərkəzi,"AYMED" klinikası və "ELMAS" klinikasının kollektivi rayon rəhbəri İslam Rzayevlə birgə, onların bu peşə bayramını təsis edən Heydər Əliyevin dağüstü parkda yerləşən abidəsi önünə gül dəstələri qoyaraq ulu öndəri andılar.İslam müəllim kollektivləri təbrik edərək onlardan işlərində fərqlənən bir qrup tibb işçilərini Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları ilə təltif etdi. Sonda xatirə şəkil çəkdirdilər.

**"YENİ BALAKƏN"**

# Ankara Universitetində Azərbaycanlı Xəstəxana İdarəçiləri üçün "Xəstəxana İdarəetmə Təlimi Proqramı"



Bir neçə gün öncə, 17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günü respublikamızda həmçinin Balakəndə də qeyd olundu.Balakəndəki tədbiri "Yeni Balakən" qəzetinin Facebook səhifəsində geniş işıqlandırmışdık.

Tədbirdə gözüm hey doğma bir insanı, Balakən MRX Publik Hüquqi Şəxs Dilbər xanımı axtarırdı.Çəkdiyim foto kadrların ən gözəl simasıdır o,-istər işiylə, istər şəxsiyyətiylə,istər mədəniyyətiylə,mənəviyyatıyla,münasibətiylə,insanlığıyla.. Daxili gözəllikləri zahirinə vurmuş, bütün gözəlliyi bir tək foto genində toplana bilən sevimli həkimimizi tədbirdə görməyəndə biraz qəribsədik. Ölkə xaricində olduğunu,nə ilə əlaqədar getdiyini bilirdim.Gözlədim gəlsin, görüşək, səfəri barədə tam təfsilatlı özündən öyrənək və bu təbrikə bir də qayıdaq. Necə deyərlər, dönüşümüz möhtəşəm oldu. Belə ki, Balakən səhiyyəsi üçün üçqat bayram idi. Birincisi 17 iyun Tibb işçilərinin peşə bayramı günü. İkincisi səhiyyə günüylə qoşalaşan Qurban bayramı günü hansı ki, tibb işçiləri bayram üstünə bayram yaşadılar. Üçüncü gözəllik isə Balakən səhiyyəsinin rəhbəri Dilbər Quliyevanın Ankara Universitetinin "Xəstəxana idarəetmə Sertifikatı" ilə təltif olunması oldu.

Ankara Universitetinin Sağlık Bilimleri Fakültəsinin Sağlık Yönetimi Bölümünün təşkilatçılığı, TİKA-nın dəstəyi, Fakültənin Dekanı Prof. Dr. Emine Özmete, TİKA Dış İlişkiler ve Ortaklıklar Dairesi başkanı Uğur Tanyeli, Azərbaycan TƏBİB Başkanı Vüqar Qurbanov, Azərbaycan İcbari Tıbbi Sağlık Sigortası Kurumu Başkanı Zaur Əliyev, Rektör Prof. Dr. Necdet Ünüvar ve Azərbaycan Respublikasının Türkiye Büyükelçisi Rəşad Eynəddin oğlu Məmmədovun iştirakı ilə 3-14 İyun 2024 tarixində Ankara Universitetində, Azərbaycanlı Xəstəxana İdarəçiləri üçün "Xəstəxana İdarəetmə Təlimi Proqramı" təşkil olunub. Proqram çərçivəsində Türkiyənin nüfuzlu xəstəxanalarında üç qrup olaraq xəstəxanaların acil servis alanlarını, klinikalarını,yoğun bakım bölümlərini gəzən qonaqlara sağlıq xidməti verən bölümlər, göstərilən sağlıq xidmətləri və xəstəxanaların işləyişi haqda detallı bilgilər verildi, təlimlər keçirildi. 13 iyunda Proqramın bağlanış və Sertifikatların təqdimat mərasimi oldu. Bu mərasimdə, təqdimatda iştirak edən hörmətli Balakən MRX Publik Hüquqi Şəxs Dildər Quliyeva proqramı başarı ilə tamamladığına görə yüksək idarəetmə sənədi olan "Xəstəxana İdarəetmə Sertifikatı" ilə təltif olundu. Bu təqdir,təltif Balakən səhiyyəsi üçün layiqli qiymət, Dilbər xanımın fəaliyyətinə verilən dəyər və Balakən tibb İşçilərinə qardaş Türkiyədən bayram hədiyyəsidir.

Balakən səhiyyəsini, özəlliklə Balakən səhiyyəsinin rəhbəri Dilbər xanım Quliyevanı bu uğuru və Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətiylə səmim qəlbdən təbrik edirik. Səsiniz hər zaman ucalardan gəlsin!

**Ramazan ABAL**



# 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü

Balakən rayon Mədəniyyət müəssisələrinin və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə 1 İyun- Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş "Sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyi- uşaqlar" başlığı altında əyləncəli konsert proqramı keçirildi.

Tədbirdə Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən rəqs qrupları, Uşaq İncəsənət məktəbinin şagirdləri, Mərkəzi Kitabxananın fəal oxucuları və məktəbəqədər təhsil müəssisələri çıxış etdilər.

Tədbirdə uşaqların nümayiş etdirdikləri nağıl qəhrəmanlarının personajları, şeirlər, mahnılar, rəqslər və səhnəciklər tədbir iştirakçılarında xoş əhval-ruhiyyə yaradıb.

**"YENİ BALAKƏN"**






# Balakəndə 15 İyun Milli Qurtuluş Günü



Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyevdir.

Azərbaycan xalqının milli qurtuluş günü - Azərbaycan Respublikasında rəsmi bayramlardan biridir. 1997-ci ilin 15 iyun günündən bayram elan edilib. 1997-ci ildən qeyd olunan bayrama 1998-ci ildən dövlət statusu verilmişdir

Balakəndə 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜ yüksək səviyyədə qeyd olundu.Rayon Mədəniyyət Mərkəzinin, Balakən Uşaq İncəsənət Məktəbinin kollektivlərinin, pəhləvan Əmirin və digər istedadlı sənətkarların rəng qatdığı təbbiri izləməyə gələnlər böyük coşquyla qarşılayaraq alqışladılar. Tədbirdə rayon rəhbəri İslam Rzayev, hörmətli millət vəkilimiz Nəsib Məhəməliyev, Azərbaycan Respublikasının əməkdar artisti Nailə İslam- zadə və digər qonaqlar iştirak etdilər. Tədbir möhtəşəm atəşfəşanlıqla sonlandı.

"YENİ BALAKƏN"



# 5 iyun - "Su təsərrüfatı və meliorasiya işçiləri"nin peşə bayramı günü

5 iyun - bu tarix ölkə melioratorları üçün olduqca əlamətdar bir gündür.

Hər il həmin gün onlar böyük fərəh və sevinc hissi ilə öz peşə bayramlarını qeyd edirlər.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında, ölkə əhalisinin ekoloji cəhətdən təmiz və dayanıqlı ərzaq məhsulları ilə etibarlı təminatındakı rolunu nəzərə alaraq, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq müstəqil Azərbaycanda 1996-cı ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən "Meliorasiya və İrriqasiya haqqında" Qanunun imzalandığı 5 iyun tarixi münasibəti ilə "Meliorator günü" peşə bayramının təsis edilməsi barədə 24 may 2007-ci il tarixli Sərəncam imzalamışdır. Ölkə başçısı su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq onun miqyasını daha da genişləndirərək 5 iyun gününün "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd olunması barədə 14 may 2014-cü il tarixli yeni Sərəncam imzalamışdır.

Peşə bayramı günü Balakəndə də yüksək səviyyədə qeyd edildi.Bele ki,su təsərrüfatı və meliorasiya işçiləri Balakən RİH-nin başçısı İslam Rzayevlə birlikdə dağüstü parka gələrək ulu öndər Heydər Əliyevin abidəsi önünə çiçəklər qoydular.Sonra rayon rəhbəri kollektivləri təbrik edərək onların fəaliyyətini yüksək qiymətləndirdi,bu təşkilatların rayonun həyatında önəmindən danışdı..

Su təsərrüfatı və meliorasiya işçilərindən rayonda suvarma sahəsində,su təchizatı və kanalizasiya xidmətlərinin səmərəli təşkilindəki fəaliyyətləri nəzərə alınaraq aşağıdakılar Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları ilə təltif olundular.

1. Piriyeva Gülarə Teyubhacı qızı BSSİ - mühasib
2. Əliyev Nazim Kamil oğlu BSSİ-mühəndis hidrotexnik
3. İsayev Aydın Herov oğlu BSSİ-mühəndis mexanik
4. Nastakalov Elçin Ramazan oğlu BSSİ-mexanizator
5. Ağayeva Çiçək Məcid qızı Balakən Sukanal sahəsi-q/r
6. Axtayev Şamil Seyfuzaman oğlu Balakən Sukanal sahəsi-sürücü
7. Poladaşvili Zaur Deandiyeviç Balakən Sukanal sahəsi-a/i

Balakən Suvarma Sistemləri İdarəsinin müdiri Ruslan Poladov və Balakən Sukanal sahəsinin müdiri Oruc Orucov rayon rəhbərinə kollektivləri və öz adlarından təşəkkür edərək,rayon üçün, vətəndaşlarımız daha da səmərəli fəaliyyət göstərəcəklərini bildirdilər.

Sonda bu gündən xatirə olaraq kollektiv fotoşəkil çəkildi.

Ramazan ABAL



# Uşaq İncəsənət məktəbində xoş keçən daha bir gün

Balakən şəhər Uşaq İncəsənət məktəbi 1966-cı ildə musiqi məktəbi kimi fəaliyyətə başlamışdır. 2005-ci ilin May ayından isə İncəsənət Məktəbi kimi fəaliyyət göstərir. 2023/ 2024-cü tədris ilinin məzunları məktəbin 55-ci məzunlarıdır. Bu münasibətlə məktəbdə geniş konsert proqramı təşkil edildi.Tədbirdə valideynlər, müəllim, şagird kollektivi və digər qonaqlar iştirak etdilər.Proqramın sonunda valideyinlər,şagirdlər ürək sözlərini söyləyərək məktəbin direktoru Arifə müəlliməyə, onlara dərs keçən, incəsənəti öyrədən müəllimlərinə təşəkkür etdilər.

Şagirdlərdən Nürəddin Ramazan oğlu: Mən Nürəddin, Balakən Uşaq İncəsənət Məktəbinin fortopianino şəbəsindən məzun oluram. İlk dərsə başladığım illərdə H.Əliyev prospektində yerləşən köhnə, darısqal, şəraitsiz bir binada təhsil alırdım.Yaxşı təhsil almaq,bu təhsili daha çox incəsənət adına layiq bir binada, şəraitdə almaq hamımızın arzusu idi. Bu arzumuz gerçəkləşdi.

Biz cənab Prezidentə təşəkkür edirik.O, bizim üçün belə gözəl məktəbin tikilməsinə sərəncam verdi və 2020-ci ildə isə özü şəxsən açılışını etdi.

Məktəbimizlə,müəllimlərimizlə fəxr edirəm.Başda məktəbin direktoru Arifə müəllimə olmaqla musiqi təhsili almağımda əməyi keçən bütün müəllimlərimə minnərdarlığımı,səmimi qəlbdən təşəkkürümü bildirirəm.Bəlkə də irəlidə musiqiçi olmayacam amma bu gözəl məktəbi,siz dəyərli müəllimlərimi heç zaman unutmayacam.

Məzunlara həsr olunmuş tədbir yüksək əhval-ruhiyyə ilə başa çataraq, tamaşaçılar tərəfindən hərarətlə alqışlandı.

Ramazan ABAL

# Balakəndə Qurban bayramı qeyd olundu



İnsanlardan fərqli olaraq Uca Allahın təsis etdiyi iki bayram var ki,bunu bütün dünya qeyd edir.Yer üzündəki bütün müsəlmanlar bulunduqları yerlərdəki məscidlərdə bayram namazı qılar,təkbir gətirirlər. Qeyri din mənsubları da buna hörmət və ehtiramla yanaşır. Bu bayramlardan biri, bu gün qeyd olunan Qurban bayramıdır. Bu gün Balakəndə də Qurban bayramı qeyd olundu.Balakən şəhər Cümə Məscidinə gələn möminlər Qurban Bayramı namazını əda edərək,Uca Rəbbimizin şəninə təkbirlər gətirdilər.

Əziz mömin qardaş,bacılar."Yeni Balakən" olaraq müqəddəs Qurban Bayramınızı təbrik edir,etdiyiniz qurbanların qəbul olmasını diləyirik Allahu Təaladan.

"YENİ BALAKƏN"

# Qabaxçöldə barama iməcliyi keçirilib

05.06.2024-cü il tarixdə Balakən rayonunun Qabaqçöl qəsəbəsində barama təmizlənmə iməcliyi keçirilib. İməclikdə Şərif, Yeni Şərif, Qaysa, Şambul, Meşəşambul və Qabaqçöl qəsəbə mədəniyyət işçiləri barama toplanmasına, təmizlənməsinə yaxından köməklik göstərdilər.İməclikdə "Ebel" rəqs qrupu müxtəlif rəqs nömrələriylə çıxış etdilər.Mədəniyyət işçilərinin çıxş, iməclik iştirakçıları tərəfindən yüksək rəğbətlə qarşılandı.

Mehriban RƏHMANOVA







# Balakən Gənclər evində "Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda Balakən RİH-in tədbiri

25 iyun 2024-cü ildə Balakən Gənclər evində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Balakən rayon Komissiyasının təşkilati dəstəyi ilə Balakən Rayon Gənclər və İdman İdarəsinin, Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının, Rayon Polis şöbəsinin, Balakən rayon təhsil sektorunun, "Balakən RMX" publik hüquqi şəxsin, rayonda fəaliyyət gəstərən ümümtəhsil məktəblərinin psixoloqlarının, peşə məktəblərinin şagirdlərinin, rayonun fəal gənclərinin iştirakı ilə "Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda maarifləndirmə tədbiri keçirilmişdi. Tədbiri giriş sözü ilə açan Balakən RİHB nın birinci müavini Turan Dibirov ölkədə və eləcə də rayonda bu sahədə aparılmış işlərdən, 44 günlük Zəfər Müharibəsində gənclərimizin cənab Prezidentin ətrafında sıx birləşərək göstərdikləri qəhrəmanlıqlarından və bu cür vətənpərvər gəncliyin ölkəmizin düşmənləri tərəfindən zərərli vasitələrlə məhv edilməsinə çalışanlardan söhbət açdı. Hər vasitə ilə rayon gəncliyinin narkotik vasitələrdən uzaq olmalarını tövsiyyə etdi.

Komissiyanın sədri Turan Dibirov çıxışında onu da bildirdi ki, həkimlər, polislər narkomaniya adlı bəlanın nəticələri ilə məşğul olurlar, müəllimlər, Gənclər Evi, İdarəsi, digər ideoloji, maarifləndirici təşkilatlar, belə tədbirlər isə səbəblərlə məşğul olur. Əgər səbəblər ortadan qalxarsa nəticələr də olmaz. Sağlam cəmiyyət bu günümüz, sağlam gənclik isə gələcəyimizdir.

Mövzu ilə bağlı Balakən Rayon Gənclər və İdman İdarəsinin rəisi Rasim Paçalov, Balakən rayon təhsil sektorunun müdiri Mehparə Mirzəyeva, "Balakən RMX" publik hüquqi şəxsin nümayəndəsi Əsgər Axundov, Nizami adına şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi Elvin Əliyev çıxış etdilər.

Sonda təşkil olunmuş rəsm sərgisinə baxış keçirilmişdir.

**Turan DİBİROV,**
**Balakən Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyanın sədri**

# "Balakən Gənclərinin İntellekt Liqası"



Balakən Gənclər evi sosial xidmət müəssisəsi gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların intellektual potensialının yüksəldilməsi, bacarıqlarının artırılması, sağlam həyat tərzinin təbliği, milli vətənpərvər hisslərin yüksəldilməsi və bir çox digər istiqamətlərdə fəaliyyət göstərir. Eyni zamanda müəssisənin prioritet sahələri istedadlı gəncləri aşkar etmək,onların məlumatlılığını artırmaq, gənclərdə müasir düşüncə tərzinin formalaşdırmaq, sorğular əsasında onlara daha yararlı olacaq mövzularda təlim, seminar, kursların davamlı olaraq təşkili, o cümlədən gənclərin sağlamlığının qorunması sahəsində və zərərli vərdişlərin yayılmasına qarşı keçirilən silsilə tədbirlərin, yarışların təşkilidir.

Bu məqsədlə iyun ayında "Balakən Gənclər evi" sosial xidmət müəssisəsinin təşkilatçılığı ilə "Balakən Gənclərinin İntellekt Liqası" adlı intellektual turnir keçirildi. Turnirin keçirilməsində məqsəd gənclər arasında mədəni-intellektual istirahətin təbliği, onların şəbəkələşməsi və həftəsonu asudə vaxtlarının səmərəli təşkili olmuşdur. Bir ay müddətində davam edən turnirdə fərdi, o cümlədən müxtəlif idarə, müəssisə, təşkilatları təmsil edən komandalar iştirak etdilər. Hər komandada 6 nəfər olmaqla ümumi 8 komandanın mübarizə apardığı turnirdə ən yüksək nəticə göstərən "Skautlar" komandası qalib gələrək qiymətli hədiyyələrlə təltif olundular. Bu kimi turnir və fəaliyyətlər müəssisə tərəfindən mütəmadi olaraq təşkil olunur.

**Fuad MİKAYILOV,**
**Balakən Gənclər Evinin metodisti, Balakən RİH yanında İctimai Şuranın katibi**

# YENİ TƏYİNAT



Elm və təhsil nazirinin müvafiq əmri ilə Günay Mahmudova Şəki-Zaqatala Regional Təhsil İdarəsinə müdir təyin olunub.

Qeyd edək ki, Günay Mahmudova 2000-2004-cü illərdə Gəncə Dövlət Universitetinin biologiya-kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 2004-cü ildən pedaqoji fəaliyyətə başlayıb.

Qax şəhər 1 nömrəli, Güllük, İlisu kənd tam orta məktəblərində kimya müəllimi işləyib.

2010-2013-cü illərdə Qax rayonu İlisu kənd tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini, 2013-2014-cü illərdə Qax rayon təhsil şöbəsində metodist, 2014-2022-ci illərdə metodik kabinetin direktoru vəzifələrində çalışıb.

2019-2020-ci illərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycan Respublikası Təhsil İnstitutunun icra etdiyi "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsində mentor, 2019-2022-ci illərdə "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" "Steam", "Peşə təmayüllü siniflər" layihələri üzrə koordinator kimi fəaliyyət göstərib.

2021-2022-ci illərdə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Məktəblərdə keyfiyyət inspeksiyası" layihəsi çərçivəsində ümumi təhsil müəssisələrində inspeksiyaların həyata keçirilməsi üçün "Məktəb inspektoru" kimi çalışıb.

Təhsildə İnkişaf və İnnovasiyalar üzrə I,II və IV qrant müsabiqələrinin qalibi olub.2022-ci ilin aprel 29-dan Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri müavini vəzifəsində çalışıb. 19 dekabr 2023-cü ildən Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edir.

Evlidir, 2 övladı var.

# Qanvermə aksiyası keçirildi



Balakən Rayon Mərkəzi Xəstəxanasında Qanvermə aksiyası keçirildi. Aksiyada şəhid və qazi ailələri də daxil olmaqla ümumilikdə 68 nəfər iştirak etdi.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankının səyyar həkim briqadası tərəfindən həyata keçirilən aksiyanın məqsədi talassemiya və hemofiliyalı xəstəliklərdən əziyyət çəkən insanlara kömək göstərmək, onlara dəstək olmaqdır.

Aksiyada rayonun ayrı-ayrı əmək kollektivlərinin nümayəndələri, həmçinin sakinlər fəal iştirak etdilər. Əvvəlcə hər bir donorun sağlamlığı yoxlanılıb. Müayinə nəticəsində səh- həti imkan verən şəxslərdən qan götürüldü.

Qeyd edək ki, tədarük olunan qan və ondan hazırlanan preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan insanların müalicəsində istifadə olunacaq.

**Səmra SULTANOVA,**
**İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis**

# "Velosiped sür sağlam yaşa"




03 iyun 2024-cü il tarixində Balakən rayonu İtitala kəndində 3 İyun Ümumdünya Velosiped Gününə həsr olunmuş "Velosiped sür sağlam yaşa" devizi altında, yeniyetmə və gənclər arasında 3 km məsafəyə veloyürüş keçirildi.

Veloyürüşdə 75 nəfər yeniyetmə və gənc iştirak etdi.

Veloyürüşdə yer tutanlar:
I yer- Həsənov Teymur
II yer- Əliyev Bayram
III yer- Hüsənov Nihat

Kütləvi idman tədbirinin təşkilində məqsəd velosiped idman növünün əhali arasında tanıdılması, sağlam həyat tərzinin təbliği və bu nəqliyyat vasitəsindən istifadə etməklə ətraf mühitin qorunmasıdır.

Qalıb gələn idmançılar Şəki Zaqatala Regional Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olundular.

**Rasim PAÇALOV,**
**Gənclər və İdman idarəsinin rəisi**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO13501000000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100